QANUN № 08 (382), 2026, s.36-41

Abberin Nüşabə Ramiz qızı,
Bakı Dövlət Universitetinin İnsan hüquqları və informasiya hüququ
UNESCO kafedrasının doktorantı
E-mail: nushaabberin@gmail.com

UOT-341.49
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.136

BEYNƏLXALQ HÜQUQA QARŞI CİNAYƏTLƏRİN TÖRƏDİLMƏSİ HALINDA TƏTBİQ EDİLƏN SANKSİYA QANUNVERİCİLİK SİYASƏTİ

Açar sözlər: *beynəlxalq hüquqa qarşı cinayətlər, sanksiyalar, sanksiya qanunvericiliyi, konfiskasiya, aktivlərin dondurulması, məhdudlaşdırıcı tədbirlər, mülkiyyət hüququ.*

Ключевые слова: преступления по международному праву, санкции, санкционное законодательство, конфискация, замораживание активов, ограничительные меры, право собственности.

Keywords*: crimes under international law, sanctions, sanctions legislation, confiscation, freezing of assets, restrictive measures, right to property.*

Giriş

Beynəlxalq cinayətlərin törədilməsi halında dövlətlərin aktivlərinin dondurulmasının, müsadirəsinin, həmçinin onun müvafiq siyasətində iştirak edən şəxslərin əmlakının sanksiyalara məruz qoyulmasının ümumi beynəlxalq hüquqi əsası (2001-ci il Dövlətlərin beynəlxalq hüquqa zidd davranışına görə məsuliyyəti üzrə Maddələr; İnsan hüquqları və əsas azadlıqların müdafiəsi üzrə 1950-ci il Avropa Konvensiyasının 1 saylı Protokolu, m. 1) ilə bərabər, eyni zamanda daxili qanunvericilik aktının olması xüsusi əhəmiyyət kəsb edir. Həm çoxtərəfli sanksiya rejiminin daxili hüquqa implementasiyası üçün, həm də tək-tərəfli məhdudlaşdırıcı tədbirlər üçün sanksiya qanunvericiliyinə ehtiyac yaranır [6, s.58]. Xüsusən də beynəlxalq cinayət hüququnun inkişafına uyğun olaraq beynəlxalq cinayətlərin qarşısının alınmasında xüsusi şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi ilə bərabər əlavə tədbirlərə də ehtiyac duyula bilir.

Beynəlxalq cinayətlərdə iştirakçılıq və ya həmin cinayətlərin törədilməsinə yardım nəticəsində əldə edilmiş əmlakın müsadirəsi (konfiskasiyası), aktivlərin dondurulması, iqtisadi-maliyyə resurslarının bloklanması və s. tədbirlər mal dövriyyəsində, kommersiya fəaliyyətində xüsusi şəxslərin mülkiyyət hüququnun cinayət fəaliyyətində istifadə edilməsinin maneələndirilməsinə kömək edir.

Əsas müddəalar

Müasir dövrdə əmlakın müsadirəsi (konfiskasiyası), aktivlərin dondurulması, iqtisadi-maliyyə resurslarının bloklanması üzrə yeni qanunvericilik nümunəsi hərbi təcavüzə məruz qalan və Kanada ABŞ, İsveçrə kimi dövlətlərin təcrübəsini implementasiya edən ölkələrdən biri Ukraynaya məxsusdur. Beynəlxalq cinayətlərin törədilməsi halında əmlakın konfiskasiyasına

imkan verən sanksiya rejimi bu ölkələr üçün xarakterikdir. Məsələnin həllində iki model:

- sanksiyalar üzrə qanunvericiliyin pozulması halı üçün konfiskasiya qaydası;

- sanksiyalar üzrə qanunvericiliyin pozulması halı üçün məsuliyyət müəyyən edən qanunvericilik qaydası. Yeri gəlmişkən uzun müddət hərbi təcavüzə məruz qoyulan Azərbaycan Respublikasında sanksiya formasında konfiskasiyanı ehtiva edən müvafiq qanunvericilik qaydası yoxdur. Öncə qeyd etdiyimiz dövlətlərdən Kanada və Ukrayna sanksiyalar üzrə qanunvericiliyin pozulması halı üçün konfiskasiya qaydasını mənimsəyən ölkələrdəndir. ABŞ təcrübəsi də buna yaxın mövqedən çıxış edir. Xüsusilə də, müharibənin elan edilməsi halında cinayət təqibi olmadan da əmlakın müsadirəsi mümkün olur. Rusiyanın 2014-cü ildə Krımın işğalından sonra sanksiya xarakterli konfiskasiya qanunvericiliyi (Sanksiyalar haqqında 14.08.2014 №2 1644-VII saylı Qanun) Ukraynada qəbul edilmişdir. Hazırda Qanun 2025-ci il redaksiyasında fəaliyyətdədir.

Konfiskasiya yalnız səlahiyyətli məhkəmənin (Ukrayna Ali Anti-korrupsiya məhkəməsinin) qərarı ilə həyata keçirilir. Məhkəmənin başladılması üçün sanksiyaların tətbiq edildiyi şəxslərə münasibətdə aktivlərin dövlət mənafeyi üçün yığan mərkəzi icra hakimiyyət orqanının müraciəti zəruridir [3]. Ukraynada bəzi şəxslərə, o cümlədən 2022-ci ildə keçmiş prezident V.Yanukoviçin [2], 2023-cü ildə isə O.Deripaskinin [4] əmlakına qarşı konfiskasiya tədbiri realizə edilib. Eyni qaydada tədbirlər Azərbaycan Respublikasında mühakimə edilən [1] R. Vardanyan və d. şəxslər barəsində həyata keçirilə bilər.

Həm Ukrayna, həm də Kanada qanunvericiliyində müsadirə sanksiya aktına uyğun olaraq sanksiya altında olan şəxslərə münasibətdə həyata keçirilir. Hər iki ölkənin qanunvericilik aktı Azərbaycan Respublikasının təsis edilməli sanksiya qanunvericiliyi üçün əhəmiyyətli ola biləcəyini düşünərək müvafiq qanunvericilik aktının üzərində dayanmağı zəruri hesab edirik. Hesab edirik ki, belə bir qanunvericilik aktı Azərbaycan Respublikasında da (Sanksiyalar haqqında Azərbaycan Respublikasının qanunu) qəbul edilməlidir.

Qanunvericilik aktı preambula və altı maddədən ibarətdir. Preambula Ukrayna konstitusiyasına, dövlət müstəqilliyi haqqında bəyannaməyə və beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinə istinadla başlayır. Eyni qayda bizim layihə üçün də keçərli olmalıdır.

Preambulanın digər bəndi konstitusiyada ifadə edilən insan, vətəndaş hüquq və azadlıqlarının konstitusion maraqlarının prioritetinin tanınması, dövlətin suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının müdafiəsi, daxili işlərə qarışmamaq, digər dövlətlərlə bərabər hüquqlu əməkdaşlığı inkişaf etdirmək tezisinə əsaslanır. İstənilən hər hansı bir arqumentlə birbaşa və ya dolayısı ilə dövlətin daxili və xarici işlərinə qarışmağı yol verilməz hesab edərək, milli maraqlara və milli təhlükəsizliyə potensial təhdidlərə yubanmadan reaksiya vermənin zərurətini qəbul edərək, digər dövlətlərin, qeyri-dövlət qurumlarının hərbi fəaliyyətinə və ya düşməncəsinə davranışının, əhalinin həyat və sağlamlığına zərər vurulmasının, şəxslərin girov götürülməsinin, dövlətin, fiziki və hüquqi şəxslərin mülkiyyətinin expropriasiyasının, davamlı iqtisadi inkişafın maneələndirilməsinin qarşısının alınması və vətəndaşların hüquq və maraqlarının hərtərəfli həyata keçirilməsi üçün müvafiq qanunvericilik aktı qəbul edilir [3].

Prambulada ifadə edilən məqsəd-prinsipləri daha arqumentli və ya sistemli formada ifadə etmək olardı. Məsələn, Azərbaycan Respublikası üçün təklif edilən qanunvericilik aktının layihəsinin preambulasında "Azərbaycan Respublikası Milli Məclisi:

- Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında bəyannaməyə, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktına və

beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərindən;

- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrindən çıxış edərək;

- Azərbaycan Respublikasının milli maraqlarının prioriteti kimi (Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsi) insan və vətəndaşların hüquq və maraqlarının, o cümlədən əmlak maraqlarının beynəlxalq hüquqa uyğun istisnaları ilə hüquqi təminatını qəbul edərək;

- beynəlxalq hüquq çərçivəsində ümumtanınmış dövlət suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının müdafiəsini;

- Azərbaycan Respublikasının suverenliyinə aid səlahiyyətlərə istənilən (humanitar, siyasi, mədəni və s.) arqumentlərlə müdaxilənin yolverilməzliyini;

- Azərbaycan Respublikasının digər dövlətlərlə davamlı iqtisadi əlaqələrinin qarşılıqlı fayda əsasında inkişaf etdirilməsindən çıxış edərək bu aktı qəbul edir" redaksiyası nəzərdə tutula bilər.

Qanun layihəsinin 1-ci maddəsi (anlayış və terminlər) (bu maddə Ukrayna və Kanada qanunvericilik aktında yer almayıb) anlayış və terminlərin şərhinə həsr edilə bilər. Xüsusən də sanksiyaların anlayışı, növləri, tətbiq etmə şərtləri, əsasları,samksiyanın nəticəsi kimi konfiskasiyanın forma və şərtləri, qərar qəbul edəcək orqanlar kimi məsələlər tənzimlənməlidir.

Qanun layihəsinin 2-ci maddəsində (suveren hüquqların müdafiəsi) milli maraqların, o cümlədən ərazi bütövlüyünün, iqtisadi müstəqilliyin, pozulmuş insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi məqsədi ilə xüsusi məhdudlaşdırıcı və digər tədbirlərin tətbiqi tənzimlənir. Xüsusi məhdudlaşdırıcı tədbirlərin tətbiqi digər müdafiə tədbirlərinin alternativi kimi nəzərdə tutula bilər.

Qanun layihəsinin 3-cü maddəsi (məhdudlaşdırıcı və ya sanksiya tədbirlərinə məruz qoyulan subyektlər) beynəlxalq hüquqa qarşı cinayət və ya cinayətlər törədən dövlətə, xarici və yerli fiziki və hüquqi, həmçinin vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikası tərəfindən məhdudlaşdırıcı və ya sanksiya tədbirlərinin tətbiqini ehtiva etməlidir.

Qanun layihəsinin 4-cü maddəsində (sanksiyaların tətbiqinin hüquqi əsasları) Azərbaycan Respublikası tərəfindən tətbiq edilən məhdudlaşdırıcı və ya sanksiya tədbirlərinin hüquqi əsası kimi Azərbaycan Respublikası Konstitusiyası və qanunvericiliyi, beynəlxalq hüququn ümumtanınmış norma və prinsipləri, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının Milli Məclisinin, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Müdafiə Şurasının aktlarının çıxış etməsi nəzərdə tutulur.

Qanun layihəsinin 5-ci maddəsində (sanksiyaların tətbiqinin prinsipial əsasları) ayrı-ayrı dövlətlər, həmin dövlətlərlə əməkdaşlıqda olan şəxslər tərəfindən *erga omnes* öhdəliklər üzrə beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərini pozan, xüsusən də soyqırım, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və ona bərabər tutulan cinayətlər, təcavüz cinayətini törədən müvafiq dövlət və onunla əlaqəli şəxslərə qarşı:

- BMT Baş Məclisinin və Təhlükəsizlik Şurasının sanksiya qətnamələri;

- regional qurumların, o cümlədən Avropa Şurasının sanksiya qətnamələri;

- beynəlxalq məhkəmə orqanlarının qərarları;

- Azərbaycan Respublikası ilə müttəfiqlik əlaqələrində olan dövlətlərin sanksiya aktları;

- Azərbaycan Respublikasının təktərəfli aktları əsasında sanksiyaların tətbiqi nəzərdə tutula bilər.

- Azərbaycan Respublikası sanksiyalara o halda qoşulur ki, onlar qanunilik, şəffaflıq və mütənasiblik şərtlərinə uyğun tətbiq edilirlər.

Qanun layihəsinin 6-cı maddəsində (qadağan edilən və ya məhdudlaşdırılan fəaliyyət istiqamətləri) sanksiyalaşdırılan fəaliyyət sahələrinin təsnifatı sadalanır:

- dövlətlərarası ticarət və texniki əməkdaşlıq və xidmətlər üzrə fəaliyyətin dondurulması;

- beynəlxalq öhdəliyi pozan dövlətin aktivlərinin, o cümlədən mərkəzi bankın aktivlərinin, suveren fondlar üzrə maliyyə xidmətlərinin dondurulması;
- hərbi-texniki əməkdaşlığın dayandırılması;
- maliyyə-iqtisadi əməkdaşlığın dayandırılması;
- dövlətlərarası hüquqi əməkdaşlığın bütün formalarının dayandırılması;
- diplomatik heyətlərin tam və ya qismən arzuolunmaz şəxs elan edilməsi;
- vizaların ləğv edilməsi və yenilərinin verilməməsi;
- mədəni – elmi və idman tədbirlərinin qismən və ya tam dayandırılması;
- tam və qismən ticarət-iqtisadi və siyasi embarqo;
- məhsul və xidmətlərin satışının boykotu;
- iqtisadi blokadanın tətbiqi və təşviqi;
- fiziki və hüquqi şəxslərin aktivlərinin dondurulması, mülkiyyət hüquqlarının realizəsinin məhdudlaşdırılması və ya dayandırılması;;
- kommersiya kontraktlarının fəaliyyətinin dayandırılması;
- xaricə valyuta çıxışlarına qadağa qoyulması;
- xüsusi şəxslərlə bağlı iqtisadi xarakterli bütün öhdəliklərin icrasının dayandırılması;
- xüsusi icazə tələb edən fəaliyyət sahələrində verilmiş lisenziyaların ləşvi;
- tranzit keçidlərin tam və ya qismən dayandırılması;
- nəqliyyat fəaliyyəti və bu sahə üzrə xidmətlərin, enerji resurslarının nəqlinin dayandırılması;
- ərazi sularına və hava məkanına girişin qadağan edilməsi;
- poçt xidmətləri, tele-radio verilişlərinin dayandırılması;
- kütləvi informasiya vasitələri, həmçinin İnternet şəbəkəsi üzrə fəaliyyətin qismən və ya tam dayandırılması;
- hüquq pozuntusu törətmiş dövlətlə hər hansı bir formada əməkdaşlıq edən subyektlərlə əməkdaşlığın dayandırılması;
- hüquq pozuntusu törətmiş dövlətlə hər hansı bir formada əməkdaşlıq edən fiziki və hüquqi şəxslərlə əməkdaşlıqda olan şəxslərlə qarşılıqlı fəaliyyətin dayandırılması;
-bu qanuna uyğun olaraq suveren hüquqların müdafiəsi üçün tələb edilən digər tədbirlər.

Qanun layihəsinin 7-ci maddəsində (sanksiyaların tətbiqi, ləğvi və dəyişikliyin edilməsi üzrə dövlət orqanları və onların səlahiyyəti) müvafiq sahələrdən asılı olaraq uyğun dövlət orqanları tərəfindən irəli sürülən sanksiyaların ali qanunverici orqan və ali icra qurumu tərəfindən qəbul edilməsi məsələləri tənzimlənir.

Qanun layihəsinin 8-ci maddəsində (yekun müddəa) bu qanunun qüvvəyə minməsi, digər qanunvericilik aktları ilə qarşılıqlı əlaqəsi, beynəlxalq əməkdaşlıq və qanunun pozulması halında məsuliyyət məsələləri tənzimlənir.

Nəticə

Təklif edilən qanun layihəsi yalnız Azərbaycan Respublikasının milli maraqlarının müdafiəsinin tənzimlənməsini deyil, həm də beynəlxalq hüquqa qarşı cinayətlərlə mübarizədə ümumi beynəlxalq hüquqi tənzimləmənin təsis edilməsində əhəmiyyətli ola bilər. Rusiyanın Ukraynaya hərbi təcavüzünə görə xüsusi şəxslərə qarşı qəbul edilən sanksiyaların tətbiqinin genişləndirilməsi (son qiymətləndirmələrə görə təxminən 58 mlrd ABŞ dolları) [5] onu göstərir ki, gələcəkdə bu sahədə universal xarakterli nümunəvi beynəlxalq hüquq tənzimetmənin əhəmiyyəti daha da artacaqdır. Bu qanunun qəbulu ilə uzun müddət hərbi təcavüzə məruz qalmış, çox sayda beynəlxalq cinayətlərin obyektinə çevrilmiş Azərbaycan Respublikası belə pozuntularla mübarizədə effektli hüquqi vasitəyə malik ola bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Bakı Məhkəməsi R. Vardanyana 20 il həbs cəzası verdi // https://www.bbc.com/azeri/articles/c78j9npmjg3o
2. Антикорсуд стягнув у держави майно екс президента та наближених до нього осі6 // URL: https://first.vaks.gov.ua/publications/antykorsud-stiahnuv-u-dokhid-derzhavy-mayno-eksprezydenta-ta-nablyzhenykhdo-noho-osib
3. Закон УкраТни “Про саНkL4ii” //іідомости ВерховноТ Ради (ВВР). 2014. NQ 40. ст. 2018
4. Про стягнення активів у дохід держави до Олега Дерипаски // https://minjust.gov.ua/news/ministry/minyust-podav-pozov-do-vaks-pro-zastosuvannyasanktsii-pro-styagnennya-aktiviv-u-dohid-derjavi-do-olega-deripaski
5. Moiseienko A. Sanctions, Confiscation, and the Rule of Law.-Groupe detudes geopolitiques. https://share.google/byMfcDjxNGbRnaxzT. əldə edilmə tarixi 14.04.2026
6. Tan Ch and Tan R. Practical PIL Public International Law and its Implications for Businesses. Younan J., ODea S. Chapter 7: Iternational Sanctiond.Paris.2025, Jus Mundi. 220 p.

Абберин Нушаба Рамиз гызы,
докторант кафедры ЮНЕСКО по
правам человека и информационному праву
Бакинского государственного университета

ЗАКОНОДАТЕЛЬНАЯ ПОЛИТИКА В ОБЛАСТИ САНКЦИЙ, ПРИМЕНЯЕМЫХ В СЛУЧАЕ СОВЕРШЕНИЯ ПРЕСТУПЛЕНИЙ ПО МЕЖДУНАРОДНОМУ ПРАВУ

РЕЗЮМЕ

В статье рассматриваются вопросы замораживания и конфискации активов государств, а также применения санкций в отношении имущества лиц, участвующих в соответствующей политике, в случае совершения преступлений по международному праву. Подчёркивается необходимость санкционного законодательства как для имплементации многосторонних санкционных режимов во внутреннее право, так и для применения односторонних ограничительных мер. Конфискация имущества, замораживание активов и блокирование экономических и финансовых ресурсов направлены на предотвращение использования собственности частных лиц в преступной деятельности. В статье рассматриваются санкционное законодательство и практика Украины, Канады и Соединённых Штатов Америки. Отмечается, что в Азербайджанской Республике отсутствуют соответствующие законодательные положения, предусматривающие конфискацию в качестве санкционной меры. В связи с этим предлагается принять Закон Азербайджанской Республики «О санкциях». В законе должны быть определены понятие и виды санкций, условия и основания их применения, формы конфискации, а также полномочия органов, принимающих соответствующие решения. Применение санкций должно осуществляться в соответствии с принципами законности, прозрачности и соразмерности. Принятие такого закона может обеспечить Азербайджанскую Республику эффективным правовым инструментом борьбы с преступлениями по международному праву.

Abberin Nushaba Ramiz,
PhD student, UNESCO Department on
Human Rights and Information Law,
Baku State University

LEGISLATIVE POLICY ON SANCTIONS APPLICABLE IN THE EVENT OF THE COMMISSION OF CRIMES UNDER INTERNATIONAL LAW

SUMMARY

The article examines the freezing and confiscation of state assets and the imposition of sanctions on the property of persons involved in relevant policies where crimes under international law have been committed. It emphasizes the need for sanctions legislation both for the implementation of multilateral sanctions regimes into domestic law and for the application of unilateral restrictive measures. Confiscation of property, freezing of assets, and blocking of economic and financial resources are aimed at preventing the use of private property for criminal activities. The article examines the sanctions legislation and practices of Ukraine, Canada, and the United States. It points out that the Republic of Azerbaijan lacks appropriate legislative provisions allowing confiscation as a form of sanction. Therefore, the adoption of a Law of the Republic of Azerbaijan "On Sanctions" is proposed. The law should define the concept and types of sanctions, the conditions and grounds for their application, the forms of confiscation, and the powers of the decision-making authorities. Sanctions should be applied in compliance with the principles of legality, transparency, and proportionality. The adoption of such a law could provide the Republic of Azerbaijan with an effective legal instrument for combating crimes under international law.

Redaksiyaya daxilolma tarixi: 26.08. 2026
Təkrar işlənməyə göndərilmə tarixi: 28.08. 2026
Çapa qəbul olunma tarixi: 30.08.2026